# Lisey, məktəb-lisey və gimnaziyaların təmayül sinifləri üçün 2016-2017-ci dərs ilinə aid nümunəvi tədris planlarının təsdiqi haqqında Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikasının lisey, məktəb-lisey və gimnaziyalarında təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının tədris Azərbaycan və rus dillərində aparılan lisey, məktəb-lisey və gimnaziyalarının təmayül sinifləri üçün 2016-2017-ci dərs ilinə aid nümunəvi tədris planları və tədris planlarına dair "Qeydlər" (1-7 nömrəli əlavələr) təsdiq edilsin.

2. Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov), Maliyyə şöbəsi (R.Orucov), tədris planlarının çap olunub vaxtında yerlərə çatdırılmasını təmin etsinlər.

3. İnformasiya şöbəsi (E.Əliyev) bu əmrin əlavələrlə birlikdə «Azərbaycan müəllimi» qəzetində dərc olunmasını və Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova həvalə olunsun.

***Mikayıl CABBAROV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***4 iyul 2016-cı il***

***№458***

---

**Əlavə:**

1. 2016-2017-ci dərs ilində lisey, məktəb-lisey və gimnaziyaların təmayül sinifləri üçün nümunəvi tədris planı (texniki fənlər üzrə) (tədris Azərbaycan dilində)

2. 2016-2017-ci dərs ilində lisey, məktəb-lisey və gimnaziyaların təmayül sinifləri üçün nümunəvi tədris planı (texniki fənlər üzrə) (tədris rus dilində)

3. 2016-2017-ci dərs ilində lisey, məktəb-lisey və gimnaziyaların təmayül sinifləri üçün nümunəvi tədris planı (humanitar fənlər üzrə) (tədris Azərbaycan dilində)

4. 2016-2017-ci dərs ilində lisey, məktəb-lisey və gimnaziyaların təmayül sinifləri üçün nümunəvi tədris planı (humanitar fənlər üzrə) (tədris rus dilində)

5. 2016-2017-ci dərs ilində lisey, məktəb-lisey və gimnaziyaların təmayül sinifləri üçün nümunəvi tədris planı (təbiət fənləri üzrə) (tədris Azərbaycan dilində)

6. 2016-2017-ci dərs ilində lisey, məktəb-lisey və gimnaziyaların təmayül sinifləri üçün nümunəvi tədris planı (təbiət

fənləri üzrə) (tədris rus dilində)

7. Lisey, məktəb-lisey və gimnaziyaların təmayül sinifləri üçün nümunəvi tədris planlarına dair qeydlər